**525-ci qəzet.** - 2024.- 1 avqust. - № 135. - S. 11

# Ədəbiyyatın təsir dairəsi: fərdi düşüncədən ictimai şüura

**Anar Qasımov**

Ədəbiyyat insanlara tezçatan olması ilə misilsiz funksiya yerinə yetirir. Söz sənətkarları, dahi şəxsiyyətlər də tarix boyu ədəbiyyatın, sözün bu böyük gücündən lazımi səviyyədə və ölçüdə istifadə edə biliblər. Bəziləri sözün qüdrətindən sırf cəmiyyəti idarə edən hökmdarlara ibrət vermək və onları ədalətə çağırmaq məqsədilə istifadə etmiş (Nizami Gəncəvi), bəziləri insana böyüklüyünü dərk etdirmək və beləliklə, onu ali varlıq kimi dünyanın gözəlliklərinə layiq olduğunu anlatmağa çalışmış (Nəsimi), bir digəri isə insanı, insanlığı xilasa çatdıra biləcək ülvi hisslərə, məhəbbətə olan inamını ifadə etmişdi (Füzuli).

## SÖZÜN QÜDRƏTİ İLƏ DÜNYAYA NİZAM GƏTİRƏN NİZAMİ

Söz mülkündən, onun qüdrətindən danışarkən, ədəbiyyatın böyük mahiyyətindən bəhs edərkən böyük Nizamidən danışmamaq, ilk olaraq ondan bəhs etməmək bağışlanmaz qəbahət olardı. Hətta bu ulu sənətkar haqqında söz açmamaqla sanki ədəbiyyatımızın qol-qanadını da kəsmiş olardıq. Nizami son dərəcə böyük və bənzərsiz sənətkardır. Onu ədəbiyyatın Everesti də adlandırmaq olar... Dahiliyi Everest qədər yüksək, fəlsəfəsi isə Marian çökəkliyi kimi dərin olan Nizami sənətini ən yaxşı şəkildə əks etdirən hind şair Əmir Xosrov Dəhləvi yazırdı ki, hər sözü birinci deyən Nizami cilasız bir incinin qalmasına imkan verməyib. Yəni dahi söz ustadı hər mövzuya toxunmuş, onları sözün qüdrəti ilə, necə deyərlər, cilalayıb.

Böyük Nizaminin sənətini anlamaq üçün, ona layiqli qiymət vermək naminə biz hələ əvvəlcə bəzi mətləblərə nəzər salmalıyıq... Əvvəla, ədəbiyyat yalnız ədəbiyyat deyil, söz sənətkarı da yalnız söz sənətkarı. Ona görə də söz sənətini elm və sənətlərin ən alisi (şahı) hesab edirik. Söz ən qüdrətli elm və sənətsə, deməli, bundan istifadə edən söz sənətkarları da eləcə qüdrətli və nəhəng şəxsiyyətlərdir. Sözün qüdrətli nümayəndəsi Nizami isə bu mənada bənzərsiz ustaddır.

XII əsrdə yaşamış böyük Nizami ədalət axtarışına çıxmışdı desək, yanılmarıq. Bu çətin yolda dahi sənətkar ən alt təbəqədən yox, üst təbəqədən başlayaraq cəmiyyəti "tərbiyə" etməyə çalışırdı. Bu böyük söz sərrafından çox danışılıb, yazılıb. Görkəmli söz ustadı ilə bağlı onu deməliyik ki, Nizaminin ən böyük arzusu və amalı ədalətli cəmiyyətin mövcud olduğu "Xoşbəxtlər ölkəsi" hesab edilir. Bu isə ustadın poeziya axtarışlarının, mən deyərdim, yeganə ideya istiqamətini müəyyənləşdirmişdir.

Böyük Nizaminin ədəbi görüşləri cəmiyyəti ideal mərtəbəyə yüksəltməkdən ibarət olmuşdur. Başqa bir deyişlə, Nizami nə yazmışdısa, mayasını ədalət və onun yaratdığı xoşbəxtlik və firavanlıqdan götürmüşdü. Ustad sənətkar onu da yaxşı bilir və dərk edirdi ki, cəmiyyətə ədalət və nəticə etibarı ilə xoşbəxtlik və firavanlıq gətirməyin ən əsas amili "yuxarıların" ədalətli olub-olmamasından asılıdır. Yəni dövləti idarə edən, xalqa rəhbər olan şəxslər vicdanlı və ədalətlidirlərsə, həmin cəmiyyətdə yaşayan insanlar da eləcə xoşbəxt yaşamaq imkanına malik olarlar. Cəmiyyətşünas şəxsiyyət kimi Nizami ictimai mühitin bu əsas "qanununu" çox yaxşı görür və anlayırdı. Bunun üçünsə o, hələ ilk dövrlərdə qələmə aldığı kiçikhəcmli əsərlərini hökmdarlara göndərir. Onların diqqətini ədəbiyyata çəkir və ardınca onları "tərbiyələndirməyə" başlayırdı.

Sözün gücündən, üzünə bütün qapıların açıq olduğu ədəbiyyatın böyük imkanlarından istifadə edən Nizami "Xəmsə" adlanan 5 poemasını dövrünün hökmdarına həsr edərək onları, ən sadə şəkildə desək, düşünməyə sövq edirdi. Dahi sənətkar dövrünün böyük idarəçilərinin qarşısında ədalətli və zülmkar, insansevər və qaniçən hökmdar obrazlarını yaratmaqla, əslində, onlara göstərmək istəyirdi ki, baxın, görün, hansı olmaq daha yaxşıdır?! Nizaminin gözündə "Hökmdar" anlayışı "İsa peyğəmbər kimi insanı yaşadandır", yetər ki, o, ədalətli olsun. Bəs ədalətli hökmdar (idarəçilər) necə olmalı, bu ədalətin sərhəddi haradək uzanmalı? Bu suala ustad ikinci poemasında Hörmüz obrazı vasitəsilə cavab verirdi. Rəiyyətin xeyrinə qoyulmuş qanunu pozan oğlunu cəzalandıran Hörmüz şah qanun qarşısında bərabərlik prinsipinə əməl etməklə ədalətliliyini və bu ədalətin sərhəddini müəyyən etmiş olurdu (Hanı o ədalət, o insaf hanı? Verə öz oğluna belə cəzanı!). Böyük Nizaminin dünyanı fəth etmək istəyən fateh hökmdarlara da sözü var idi. Dünyanı orduyla, qılınc gücü ilə tutmaq mümkün deyil. Dünya heç qılınc gücü ilə tutulacaq qədər qolsuz-ayaqsız da deyil. Amma bu qoca dünyanı ram etmək mümkündü. Necə? - Kim ki bu dünyanın nəbzini İsa kimi tutarsa, insafı və mürvətiylə dünyanın hakimi olar. Dünyaya zülmkarlıq, rəzalət fateh ola bilməz. Yer üzünün bir fatehi var, o da ədalət və ədalətdir.

Böyük Nizami hökmdarlar qarşısında başqa pəncərələr də açırdı: Ölkədəki gözəlliklər kimi, xaraba vəziyyətdən də onlar cavabdehdir; ən ucqar vilayətdə belə, bir dövlət məmuru zülm etsə, bunun səbəkarı da hökmdarlardır; ölkəni əyyanlarına tapşıraraq gününü eyş-işrətdə keçirən və bunun nəticəsində əyan-əşrəfin ölkəni viran qoymasının da məsuliyyəti hökmdarların boynunadır.

Dahi şəxsiyyət onu da yaxşı bilir və anlayırdı ki, insan (təbəqəsindən asılı olmayaraq) düşünə bilirsə, yaşayır və yaxud o düşündüyü andan etibarən yaşamağa başlayacaq. Bunun üçün dahi sənətkar yalnız "yuxarı"

təbəqələri deyil, bütün insanları, hətta "aşağıları" da düşünməyə vadar edirdi. Çünki ədalətli cəmiyyət, xoşbəxt və firavan insan mühiti "yuxarılar" və "aşağıların" birgə fəaliyyəti (mübarizəsi) nəticəsində mümkün ola bilərdi. "Xoşbəxtlər ölkəsi"nin "resept"i də məhz bunlardan ibarət olmalıydı.

Söz mülkünün şahı kimi Nizami ömrü boyu bu amal istiqamətində var gücü ilə mübarizə apardı. Həmin dövrkü tarixə nəzər saldıqda Nizaminin məqsədinə müəyyən dərəcədə çatdığını görürük. Amma ustad sənətkarın dünyadan köçməsindən sonrakı dövrlərdə zülm və ətalət yenə "meydan sulamağa" başladı. Bu dəfə isə "aşağıları" haqsızlığa qarşı mübarizəyə səsləyən Nəsimi fəlsəfəsi məsuliyyəti öhdəliyinə götürdü. Beləliklə, bəşər övladına "Sən kimsən?", "Nəyə qadirsən?"i anladan Nəsimi poeziyası ictimai ədalət axtarışında ən öndə getməyə başladı.

## "MƏN KİMƏM?"DƏN İCTİMAİ MÜBARİZƏYƏ

Ədəbiyyat tariximizə nəzər saldıqda Nizami Gəncəvi yaradıcılığı ilə söz sənətinin daha da inkişaf etdiyini və cəmiyyətin tərbiyəsi və təşkilində mühüm rol oynamağa başladığını görürük. Hətta bu səbəbdən Nizamidən sonra onun davamçıları da meydana çıxır və "Nizami ədəbi məktəbi" yaranırdı. Amma bununla belə, ədəbiyyat bizim hələ XX əsrin əvvəllərində müşahidə edə bildiyimiz "Molla Nəsrəddin" və "Füyuzat" kimi ədəbi cərəyan (əslində, təşkilatlanma) səviyyəsinə yüksələ bilməmişdi. Çünki "Molla Nəsrəddin" və "Füyuzat" xalqın maariflənməsi, ictimai ədalət, haqsızlığa qarşı mübarizə sahələrində, o cümlədən, milli oyanış, milli birlik istiqamətində tarixi missiya üzərlərinə götürdü və bu missiyanı bir təşkilat kimi şərəflə yerinə yetirə bildilər. Başqa bir deyişlə, Nizami Gəncəvi dövründə ədəbiyyat hələ də ədəbiyyat (söz sənəti) kimi fəaliyyət göstərirdisə, XX əsrlə birlikdə ədəbiyyat ən güclü təbliğat aləti funksiyasını yerinə yetirməyə başlamışdı. Yəni ədəbiyyat XII əsrdən XX əsrə və sonrakı dövrlərə doğru böyük təkamül prosesi yaşayaraq yeni bir Era yarada bildi.

XX əsrin əvvəllərində böyük tənqidi realist ordu yaratmış mollanəsrəddinçilər və xalqın fikir dünyasının üfüqlərini daha da genişləndirən romantik (əslində idealist) gücün mərkəzinə çevrilmiş füyuzatçılar bir qrup şəklində birləşmişdilər. Amma qədim və orta dövr ədəbiyyatında biz bu halı müşahidə edə bilmirdik. Bununla belə, bu dövrlərdə ayrı-ayrı söz sənətkarları öz yaradıcılığı və fəaliyyətləri ilə bütöv bir ədəbi məktəb funksiyasını yerinə yetirə bilmişdilər. Bu mənada böyük İmaddədin Nəsimi (1369-1417) şəxsiyyətinə ayrıca nəzər salmaq lazım gəlir... Bir öncəki yazımızda biz Nizamini söz sənətkarından daha çox filosof və cəmiyyətşünas şəxsiyyət hesab edirdiksə, İmadəddin Nəsimi şəxsiyyətini də ictimai haqsızlığa və ədalətsizliyə qarşı mübarizə aparan böyük ictimai xadim olaraq qeyd etməliyik.

İmadəddin Nəsiminin yaradıcılığı və sanki konsepsiya şəklində işlənib hazırlanmış fəaliyyəti Nizami ilə müqayisdə əks qütblərdə (bir-birinə təzadda) dayanır. Nizami birbaşa yuxarı təbəqəni "tərbiyə" etməyə çalışırdısa, Nəsimidə bu hal-vəziyyət mövcud deyildi. Əksinə, o, əsər və fəaliyyətində "aşağılara" müraciət edir və onları mübarizəyə səsləyirdi. Bunun üçünsə Nəsimi özünə yol və üsul da seçmişdi: "aşağılara" öz böyüklüyünü anlatmaq.

İnsan o zaman onu buxovlayan ədalət və haqsızlığa qarşı çıxa bilər ki, o, öz böyüklüyünü anlaya bilir. İmadəddin Nəsimi yaradıcılığı məhz bu amala köklənmiş təbliğat və təşviqat mexanizmi idi. Biz bu görkəmli şəxsiyyətin yaradıcılığını bu cür qiymətləndirməyi düzgün hesab edirik. Ona görə ki, Nəsimi yaradıcılığının əsas hissəsini təşkil edən əsərlərində insana üz tutur, onun böyük varlıq olduğunu söyləyirdi: İnsanoğlu o qədər böyükdür ki, o hətta bu iki dünyaya sıxmır. Göy və yer, kaf və nun hamısı onda özünə yer edib, insan hətta gizli xəzinənin görünən gözüdür ("Sığmazam" qəzəli). Mən (burada ümumən insanlar nəzərdə tutulur) mülki-cahanam, Haqq məkanıyam. Göy və yerəm, kövnü məkanam. Surət və məna şəklində Haqq və onun sübutuyam. Zaman və məkanam. Gizli xəzinəyəm ("Mən mülki-cahan" qəzəli). Mən o qeybi gözəl sevgiliyəm ki, kainatın gözüyəm. O Rəbbin nitqiyəm ki, dillərdə söylənən əzbər olmuşam ("Daim ənəlhəq söylərəm..." qəzəlindən).

İnsana üz tutaraq ona bu qədər böyük və bənzərsiz varlıq olduğunu anlatmaqda Nəsiminin məqsəd və məramı da bəlli idi. O, insana demək istəyirdi ki, sən bu qədər böyük varlıqsan, hətta iki dünyanı içinə sığdıracaq qədər nəhəngsən. Belə olan halda sən heç bir haqsızlığa, ədalətsizliyə, zülmə məruz qalmamalısan. Bütün bu naqisliklərdən pak və təmiz ömür sürməlisən... Bunları insanlara söyləməklə Nəsimi onları haqsızlığa, ədalətsizliyə, ümumən şər əməllərə qarşı mübariz olmağa səsləyirdi. Beləliklə, ictimai ədalətsizliyə qarşı Azərbaycan hüdudlarını da çoxdan aşmış xalqlar hərəkatı meydana çıxırdı. Bu mübarizənin əsas təbliğat vasitəsi isə Nəsiminin (onun öncəsində isə ustadı Nəiminin) rəhbərlərindən olduğu Hurifilik cərəyanı idi. Bu cərəyən çox keçmir ki, zülmə, haqsızlığa, maddi və mənəvi əsarətə qarşı "aşağıları" birləşdirir və xalqa zülm edən "yuxarıların" qorxulu röyasına çevrilir.